**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədlər İbayev Cəbrayıl Hüseyn oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 158 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Masallı rayonu, Qarğalıq bələdiyyəsinin üzvlüyünə namizədlər İbayev Cəbrayıl Hüseyn oğlu, Xəmmədov Ağamoğlan Xudaverdi oğlu, Şirinov Səmidağa Zəki oğlu, Həşimov Əhəd Əzizağa oğlu, Abbasov Əlirza Ağahüseyn oğlu, Hüseynov Teymur Sənham oğlu, Hüseynov Elton Atabala oğlu, İbayev Müşviq Cəbrayıln oğlu 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, 70 saylı Masallı şəhər seçki dairəsinin 30 saylı seçki məntəqəsində səsvermə günü ciddi qanun pozuntularının olduğunu bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət tam, hərtərəfli və obyektiv surətdə araşdırılmışdır.

Müraciət araşdırılarkən müəyyən olunmuşdur ki, ərizəçilərin iddia etdikləri qanun pozuntuları seçki dairəsinin ərazisində olan seçki məntəqələrini əhatə etdiyindən, müraciət aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün 70 saylı Masallı şəhər seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublkası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarın qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. İmişli rayonu, Çahar bələdiyyəsinn üzvlüyünə namizədlər İbayev Cəbrayıl Hüseyn oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 158 saylı müraciəti araşdırılması üçün 70 saylı Masallı şəhər seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |